**“Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında” Konvensiyaya qoşulmaq barəsində**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası 1993-cü il 29 may tarixli “Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında” Konvensiyaya müvafiq bəyanatlarla (bəyanatların mətni əlavə olunur) **qoşulsun.**

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 mart 2004-cü il
№ 611-IIQ

**Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında**

**KONVENSİYA**

Bu Konvensiyam imzalayan Dövlətlər,

şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün uşağın ailə mühitində, xoşbəxtlik, sevgi və qarşılıqlı anlaşma mühitində böyüyüb boya-başa çatmalı olmasını etiraf edərək,

hər bir dövlət tərəfindən uşağın doğulduğu ailənin qayğısında qalmasını təmin etmək üçün prioritet məsələ kimi müvafiq tədbirlərin görülməsini xatırladaraq,

mənşə dövlətdə münasib ailənin tapılmadığı bir uşaq üçün ölkələrarası övladlığa götürmənin təklif etdiyi daimi ailə üstünlüyünü etiraf edərək,

ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına və onun əsas hüquqlarına hörmət etməklə həyata keçirməsinin təmin edilməsi, habelə uşağın qaçırılmasının, satışının və ya ticarətinin qarşısının alınması üçün tədbirlərin görülməsi zəruriliyinə əmin olaraq,

bu məqsədlə də beynəlxalq sənədlərdə, xüsusilə də Birləşmiş Millətlər Təşkilatının Uşaq hüquqları haqqında 1989-cu il 20 noyabr tarixli Konvensiyasında, Uşaqların Müdafiəsinə və Rifahına aid olan Sosial və Hüquqi Prinsiplərə dair Birləşmiş Millətlər Təşkilatının Bəyannaməsində, Milli və Beynəlxalq səviyyədə Uşağın Yerləşdirilməsinə və Övladlığa Götürülməsi üçün Xüsusi Tövsiyələrdə əks olunan prinsiplər nəzərə alınaraq, ümumi müddəaların yaradılmasını arzulayaraq,

aşağıdakı müddəalar barədə razılığa gəldilər:

Fəsil I

**KONVENSİYANIN TƏSİR DAİRƏSİ**

Maddə 1

Bu Konvensiyanın məqsədləri aşağıdakılardır:

a) ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına və beynəlxalq hüquqda tanındığı kimi, onun əsas hüquqlarına hörmət etməklə həyata keçirilməsinin təmin olunması üçün təminatlar yaratmaq;

b) bu cür təminatlara əməl olunmanı təmin etmək və bununla da uşağın qaçırılmasının, satışının və ya ticarətinin qarşısını almaq üçün Razılığa gələn Dövlətlər arasında əməkdaşlıq sistemini yaratmaq;

c) Razılığa gələn Dövlətlərdə bu Konvensiyaya uyğun olaraq həyata keçirilmiş övladlığa götürmənin tanınmasını təmin etmək.

Maddə 2

(1) Bu Konvensiya, adətən Razılığa gələn bir Dövlətdə (mənşə dövlətdə) daimi yaşayan uşaq Razılığa gələn digər dövlətdə (qəbul edən Dövlətdə) daimi yaşayan ər/arvad və ya şəxs tərəfindən mənşə Dövlətində övladlığa götürüldükdən sonra və ya qəbul edən Dövlətdə, yaxud mənşə dövlətində belə övladlığa götürülmə məqsədi üçün köçürülmüşsə, köçürülürsə və ya köçürülməli olduqda tətbiq edilir.

(2) Bu Konvensiya yalnız daimi valideyn-uşaq münasibətlərini yaradan övladlığa götürməni əhatə edir.

Maddə 3

Əgər 17-ci maddənin c yarımbəndində nəzərdə tutulan razılaşmalar uşağın on səkkiz yaşına çatmasına qədər verilməmişdirsə, bu Konvensiyanın tətbiq edilməsi dayandırılır.

Fəsil II

**ÖLKƏLƏRARASI ÖVLADLIĞA GÖTÜRMƏ ÜÇÜN TƏLƏBLƏR**

Maddə 4

Bu Konvensiya çərçivəsində övladlığa götürmə yalnız mənşə Dövlətin səlahiyyətli orqanları tərəfindən aşağıdakılar yerinə yetirildikdən sonra həyata keçirilə bilər:

a) uşağın övladlığa götürülməsinin mümkünlüyü müəyyən edilmişdir;

b) uşağın mənşə Dövlətdə yerləşdirilməsi imkanları lazımınca nəzərdən keçirildikdən sonra ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına uyğun olması müəyyən olunmuşdur;

c) müəyyən edilmişdir ki,

(1) övladlığa götürmək üçün razılığı zəruri olan şəxslər, idarələr və səlahiyyətli orqanlar lazımi məsləhətlər almış və öz razılıqlarının nəticələri, xüsusilə də övladlığa götürmənin uşaqla onun doğma ailəsi arasında olan hüquq münasibətlərinə xitam verilib-verilməməsi ilə nəticələnməsi barədə müvafiq qaydada məlumatlandırılmışlar;

(2) bu cür şəxslər. idarələr və səlahiyyətli orqanlar öz razılıqlarını azad, hüquqi baxımdan tələb olunan formada vermiş və bunları yazılı surətdə ifadə etmiş və ya təsdiq etmişlər;

(3) razılıqlara hər hansı növ ödəniş və ya təzminatla təhrik olunmamış və razılıqdan imtina edilməmişdir; və

(4) ananın razılığı, bu tələb olunduqda, yalnız uşağın doğulmasından sonra verilmişdir; və

d) uşağın yaşına və yetkinlik səviyyəsinə münasibətdə müəyyən edilmişdir ki,

(1) o, övladlığa götürmənin və onun övladlığa götürülməyə razılığının, belə razılıq tələb olunduğu hallarda, nəticələri haqqında məsləhət almış və bu barədə lazımi qaydada məlumatlandırılmışdır;

(2) uşağın arzu və fikirləri nəzərdən keçirilmişdir;

(3) uşağın övladlığa götürməyə razılığı, belə razılıq tələb olunduğu hallarda, azad, hüquqi baxımdan tələb olunan formada verilmiş və bunlar yazılı surətdə ifadə edilmiş və ya təsdiq edilmişdir; və

(4) bu cür razılığa hər hansı növ ödəniş və ya təzminat ilə təhrik olunmamışdır.

Maddə 5

Bu Konvensiya çərçivəsində övladlığa götürmə yalnız qəbul edən Dövlətin səlahiyyətli orqanları tərəfindən aşağıdakılar yerinə yetirildikdən sonra həyata keçirilə bilər:

a) müəyyən edilmişdir ki, övladlığa götürəcək valideynlərin övladlığa götürmək üçün hüquqları var və onlar buna uyğundurlar;
b) əmin olunmuşdur ki, Övladlığa götürəcək valideynlər lazımı məsləhətlər almışlar; və
c) müəyyən olunmuşdur ki, uşağa həmin dövlətə daxil olmaq və orada daimi yaşamaq icazəsi verilib və ya veriləcəkdir.

Fəsil III

## MƏRKƏZİ ORQANLAR VƏ AKKREDİTƏ EDİLMİŞ ORQANLAR

Maddə 6

(1) Razılığa gələn Dövlət səlahiyyətli orqanları üçün bu Konvensiyadan irəli gələn vəzifələri yerinə yetirmək məqsədilə Mərkəzi orqan təyin edir.

(2) Federal dövlətlər, hüquq sistemi birdən çox olan dövlətlər və ya müxtəlif ərazi vahidlərinə malik olan dövlətlər birdən çox Mərkəzi orqan təyin etməkdə və onların ərazi və ya fərdi funksiyalarının çərçivəsini dəqiqləşdirməkdə sərbəstdir. Dövlət birdən çox Mərkəzi orqan təyin etdikdə, o dövlət daxilində müvafiq Mərkəzi orqana ötürülməsi üçün hər hansı bir yazışmanın ünvanlana biləcəyi Mərkəzi orqan müəyyən edir.

Maddə 7

(1) Mərkəzi orqanlar bir-biri ilə əməkdaşlıq etməli və uşaqları müdafiə etmək və bu Konvensiyanın digər məqsədlərinə nail olmaq üçün öz dövlətlərindəki səlahiyyətli orqanlar arasında əməkdaşlığı təşviq etməlidirlər.

(2) Onlar aşağıdakıları yerinə yetirmək üçün birbaşa müvafiq tədbirlər görürlər:

a) övladlığa götürməyə aid öz dövlətlərinin qanunları haqda məlumatı və statistika və standart üsullar kimi digər ümumi məlumatı təqdim etmək;

b) Konvensiyanın fəaliyyəti barədə bir-birini məlumatlandırmaq və mümkün qədər onun tətbiqi zamanı yaranan maneələri aradan qaldırmaq.

Maddə 8

Mərkəzi orqanlar övladlığa götürmə ilə əlaqədar qeyri-qanuni maliyyə və ya digər mənfəətin əldə olunmasının qarşısını almaq və bu Konvensiyanın məqsədlərinə zidd olan bütün düzgün olmayan təcrübəni aradan qaldırmaq üçün bir-başa və ya dövlət orqanları vasitəsilə lazımi müvafiq tədbirləri görməlidirlər.

Maddə 9

Mərkəzi orqanlar birbaşa və ya dövlət orqanları və ya öz Dövlətlərində lazımi qaydada akkreditə edilmiş digər orqanlar vasitəsilə bütün müvafiq tədbirləri görməlidir, xüsusilə də:

a) övladlığa götürmənin başa çatdırılması üçün zəruri olan həcmdə uşağın və övladlığa götürmək niyyətində olan valideynlərin vəziyyəti haqqında məlumatı toplamalı, qoruyub saxlamalı və onun mübadiləsini həyata keçirməli;

b) övladlığa götürməyə nail olmaq məqsədilə araşdırma prosesini (icraatı) sadələşdirməli, ona əməl etməli, onun tez bir zamanda həyata keçirilməsini təmin etməli;

c) öz Dövlətlərində övladlığa götürməyə dair məlumatlandırmanın və övladlığa götürmədən sonra nəzərdə tutulan xidmətin həyata keçirilməsini təşviq etməli;

d) ölkələrarası övladlığa götürmə təcrübəsi haqqında bir-birinə ümumi qiymətləndirmə hesabatı təqdim etməli;

e) müəyyən övladlığa götürmə vəziyyəti haqqında məlumata dair öz Dövlətlərinin qanunu buna icazə verdiyi həcmdə, Mərkəzi orqanlardan və ya dövlət orqanlarından alınmış əsaslandırılmış sorğulara cavab verməlidirlər.

Maddə 10

Akkreditasiya yalnız müəyyən vəzifənin həyata keçirilməsinə müvəkkil edilmiş, öz səlahiyyətlərini nümayiş etdirən orqanlar tərəfindən edilə və saxlanıla bilər.

Maddə 11

Akkreditə edilmiş orqanlar:

a) akkreditə edən dövlətin səlahiyyətli orqanın müəyyən etdiyi məhdudiyyət çərçivəsində və bu cür vəziyyətə uyğun olaraq, yalnız qeyri-mənfəət (kommersiya) məqsədini güdməli;

b) öz etik standartları ilə və təlimatlandırmaqla və ya ölkələrarası övladlığa götürmə sahəsində iş təcrübəsi olan ixtisaslı şəxslər tərəfindən idarə olunmalı və öz işçi heyətini toplamalı;

c) öz tərkibinə, fəaliyyətinə və maliyyə durumuna dair həmin Dövlətin səlahiyyətli orqanı tərəfindən nəzarət altında olmalıdır.

Maddə 12

Razılığa gələn bir Dövlətdə akkreditə edilmiş orqan Razılığa gələn digər Dövlətdə yalnız o zaman fəaliyyət göstərə bilər ki, hər iki dövlətin səlahiyyətli orqanı bunu etməyə icazə vermiş olsun.

Maddə 13

Razılığa gələn hər bir dövlət Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının Daimi Bürosuna Mərkəzi orqanların təyin edilməsi və lazım gəldikdə. onların səlahiyyət həcmi, habelə akkreditə edilmiş orqanların adları və ünvanları barədə məlumat verir.

Fəsil IV

## ÖLKƏLƏRARASI ÖVLADLIĞA GÖTÜRMƏDƏ PROSEDUR TƏLƏBLƏRİ

Maddə 14

Razılığa gələn bir dövlətdə daimi yaşayan şəxslər Razılığa gələn digər dövlətdə daimi yaşayan uşağı övladlığa götürmək istədikdə öz daimi yaşadıqları Dövlətdə Mərkəzi orqana müraciət etməlidirlər.

Maddə 15

(1) Əgər qəbul edən Dövlətin Mərkəzi orqanı əmin olsa ki, müraciət edən şəxslər övladlığa götürmək hüququna və ixtiyarına malikdirlər, onda həmin Mərkəzi orqan, bu şəxslərin şəxsiyyətini, övladlığa götürmək hüququnun və ixtiyarının olmasını, tərcümeyi-halını, ailə və tibbi tarixini, sosial mühitini, övladlığa götürmənin səbəblərini, ölkələrarası övladlığa gÖtürməni həyata keçirmək imkanına malik olduğunu, habelə onların övladlığa götürmək istədikləri uşağın səciyyəvi xüsusiyyətlərini əks etdirən məruzəni hazırlamalıdır.

(2) Mərkəzi orqan həmin məruzəni mənşə Dövlətin Mərkəzi orqanına Ötürür.

Maddə 16

(1) Əgər mənşə Dövlətin Mərkəzi orqanı əmin olsa ki, uşaq övladlığa götürülə bilər, onda həmin Mərkəzi orqan:

a) uşağın şəxsiyyətini, övladlığa götürmək imkanını, tərcümeyi-halını, sosial mühitini, ailə tarixini, eyni zamanda uşağın ailəsini əks etdirən tibbi tarixini və uşağın hər hansı bir xüsusi tələbatını əks etdirən məruzəni hazırlamalı;

b) uşağın tərbiyəsinə və onun etnik, dini və mədəni mənsubiyyətinə lazımi diqqət yetirməli;

c) 4-cü maddəyə uyğun olaraq razılığın verildiyini müəyyən etməli; və

d) xüsusilə uşağa və övladlığa götürmək niyyətində olan valideynlərə dair məruzəyə əsaslanaraq, uşağın yerləşdirilməsinin onun ali maraqlarına uyğun edildiyinin nəzərdən keçirilib-keçirilməməsini müəyyən etməlidir.

(2) O, əgər mənşə Dövlətdə ananın və atanın şəxsiyyəti açıqlana bilməzsə, bunun açılmamasını təmin etməklə, zəruri razılığın verildiyini, yerləşdirilməyə dair öz mülahizələrinin əsaslandığı səbəbləri təsdiq edən, uşaq barəsində olan məruzəsini qəbul edən Dövlətin Mərkəzi orqanına göndərir.

Maddə 17

Mənşə dövlətdə uşağın övladlığa götürmək niyyətində olan valideynlərə təhvil verilməsi haqqında qərar yalnız aşağıdakı hallarda verilə bilər:

a) həmin Dövlətin Mərkəzi orqanı övladlığa götürmək niyyətində olan valideynlərin razılığına əmin olduqda;

b) həmin Dövlətin qanunu və ya mənşə Dövlətin Mərkəzi orqanı təsdiq olunmanı tələb edən hallarda, qəbul edən Dövlətin Mərkəzi orqanı bu cür qərarı təsdiq etdikdə;

c) hər iki Dövlətin Mərkəzi orqanı övladlığa götürülmənin davam edilə biləcəyinə öz razılığını bildirdikdə; və

d) 5-ci maddəyə uyğun olaraq müəyyən edilsə ki, övladlığa götürmək niyyətində olan valideynlər övladlığa götürmək ixtiyarına və hüququna malikdirlər və buna münasibdirlər və uşağın qəbul edən Dövlətə daxil olmaq və ərazisində daimi qalmaq hüququ vardır və ya veriləcək.

Maddə 18

Hər iki Dövlətin Mərkəzi orqanı uşağın mənşə Dövləti tərk etmək və qəbul edən Dövlətə daxil olmaq və ərazisində daimi qalmaq üçün icazəni almaq məqsədilə bütün zəruri addımlar atacaqdır.

Maddə 19

(1) Uşaq qəbul edən Dövlətə yalnız o zaman köçürülə bilər ki, 17-ci maddənin tələblərinə əməl edilmiş olsun.

(2) Hər iki ölkənin Mərkəzi orqanı təmiri edir ki, bu cür köçürülmə təhlükəsiz və lazımi şəkildə və əgər mümkündürsə, övladlığa götürən və ya övladlığa götürmək niyyətində olan valideynlərin müşayiəti ilə həyata keçirilir.

(3) Uşağın köçürülməsi həyata keçirilmədikdə, 15-ci və 16-cı maddələrdə qeyd olunan məruzələr həmin məruzələri göndərən səlahiyyətli orqana geri göndərilir.

Maddə 20

Mərkəzi orqanlar övladlığa götürmə prosesi barədə və onun başa çatdırılması üçün görülmüş tədbirlər, habelə sınaq müddəti tələb olunduqda, yerləşdirmənin hansı mərhələdə olması barədə bir-birini məlumatlandırırlar.

Maddə 21

(1) Övladlığa götürmə uşağın qəbul edən Dövlətə köçürülməsindən sonra baş verdikdə və həmin Dövlətin Mərkəzi orqanı uşağın övladlığa götürmək niyyətində olan valideynlərdə fasiləsiz qalmasının uşağın ali maraqlarına uyğun olmadığını aşkar etdikdə, Mərkəzi orqan bu cür uşağın müdafiəsi, xüsusilə də aşağıdakıları təmin etmək üçün zəruri tədbirlər görür:

a) uşağı övladlığa götürmək niyyətində olan valideynlərdən geri götürməyə məcbur etmək və müvəqqəti qayğı göstərmək;

b) Mənşə Dövlətin Mərkəzi orqanı ilə məsləhətləşmələr əsasında, övladlığa götürmək məqsədilə təxirə salmadan uşağın yenidən yerləşdirilməsini təmin etmək və ya, əgər bunu etmək mümkün deyilsə, buna alternativ uzun müddətli qayğı göstərmək; mənşə dövlətin mərkəzi orqanı övladlığa götürmək niyyətində olan yeni valideynlər barəsində lazımi qaydada məlumatlandırılmayana qədər övladlığa götürmə həyata keçirilə bilməz;

c) son vasitə kimi, əgər uşağın maraqları bunu tələb edirsə, onun qaytarılmasını təşkil etmək.

(2) Uşağın yaşına və yetkinlik dərəcəsinə xüsusi diqqət yetirərək, o, məsləhət almalıdır və lazım gəldikdə, bu maddəyə əsasən görülməsi nəzərdə tutulan tədbirlərə dair onun razılığı alınmalıdır.

Maddə 22

(1) Bu fəsil əsasında Mərkəzi orqanın funksiyaları dövlət orqanı və ya III fəslə əsasən akkreditə edilmiş orqanlar tərəfindən öz Dövlətinin qanunu buna icazə verdiyi həcmdə həyata keçirilə bilər.

(2) Razılığa gələn istənilən Dövlət bu Konvensiyanın depozitarisinə bəyan edə bilər ki, 1526-cı maddələrə əsasən Mərkəzi orqanın funksiyaları həmin Dövlətin qanunu buna icazə verdiyi həcmdə və həmin Dövlətin səlahiyyətli orqanının nəzarəti altında:

a) vahidlik, peşəkar səlahiyyətə, təcrübəyə və həmin Dövlətin məsuliyyətinə cavab verən;

b) öz etik standartları, təlimi və ya ölkələrarası övladlığa götürmə sahəsində iş təcrübəsi ilə ixtisaslaşmış orqanlar və ya şəxslər yerinə yetirəcəkdir.

(3) 2-ci bənddə nəzərdə tutulan bəyanatı vermiş Razılığa gələn dövlət Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının Daimi Bürosuna bu cür orqanların və şəxslərin adları və ünvanları barədə məlumat verir.

(4) İstənilən Razılığa gələn dövlət bu Konvensiyanın depozitarisinə bəyan edə bilər ki, onun ərazisində adətən yaşayan uşağın övladlığa götürülməsi, yalnız Mərkəzi orqanın funksiyaları 1-ci bəndə uyğun olaraq yerinə yetirildikdə həyata keçirilə bilər.

(5) 2-ci bəndə əsasən edilmiş hər hansı bir bəyanatın verilməsinə baxmayaraq, 15-ci və 16-cı maddələrdə nəzərdə tutulan məruzələr, hər bir halda, Mərkəzi orqanın və ya 1-ci bəndə uyğun olaraq digər rəsmilərin və ya səlahiyyətli orqanların məsuliyyəti altında hazırlanmalıdır.

Fəsil V

## ÖVLADLIĞA GÖTÜRMƏNİN TANINMASI VƏ TƏTBİQİ

Maddə 23

(1) Övladlığa götürən Dövlətin səlahiyyətli orqanı tərəfindən bu Konvensiyaya uyğun olaraq həyata keçirilən kimi təsdiq edilmiş övladlığa götürmə Razılığa gələn digər Dövlətlərdə qüvvədə

olan qanunla tanınmalıdır. Təsdiqnamədə 17-ci maddənin s) yarımbəndində nəzərdə tutulan razılığın nə vaxt və kim tərəfindən verilməsi əks etdirilməlidir.

(2) Razılığa gələn hər bir Dövlət bu Konvensiyanı imzalayarkən, ratifikasiya, qəbul və ya təsdiq edərkən və ya ona qoşularkən, həmin Dövlətdə təsdiq etməyə səlahiyyəti olan orqanın və ya orqanların adı və funksiyaları barədə Konvensiyanın depozitarisinə məlumat verir.

Maddə 24

Razılığa gələn Dövlətdə övladlığa götürmənin tanınmasından yalnız o zaman imtina edilə bilər ki, uşağın ali maraqlarını nəzərə alaraq, övladlığa götürmək həmin Dövlətin dövlət siyasətinə açıq şəkildə zidd olsun.

Maddə 25

Razılığa gələn istənilən Dövlət bu Konvensiyanın depozitarisinə bəyan edə bilər ki, o, 39-cu maddənin 2-ci bəndinin tətbiqi ilə bağlanmış razılaşmaya uyğun olaraq övladlığa götürməni tanımaq üçün özünü bu Konvensiyaya bağlı hesab etmir.

Maddə 26

(1) Övladlığa götürmənin tanınmasına aşağıdakılar da aid edilir:

a) uşaq və onu övladlığa götürmüş valideynlər arasında valideyn-uşaq hüquq münasibətlərinin tanınması;

b) övladlığa götürənin uşağa qarşı valideynlik məsuliyyətinin cavabdehliyi;

c) əgər övladlığa götürmə onun edildiyi Razılığa gələn Dövlətdə bu cür təsirə malikdirsə, uşaq və uşağın ana və atası arasındakı əvvəl mövcud olan hüquq münasibətlərinin başa çatdırılmasının tanınması.

(2) Əvvəl mövcud olan valideyn-uşaq hüquq münasibətlərinin başa çatdırılması təsirinə malik olan övladlığa götürmə hallarında, uşaq qəbul edən Dövlətdə və övladlığa götürülmənin tanındığı hər hansı bir digər Dövlətdə, hər bir bu cür Dövlətdə belə təsirə malik olan övladlığa götürmədən irəli gələn oxşar hüquqlara malikdir.

(3) Yuxarıdakı bəndlərin müddəaları övladlığa götürməni tanıyan Razılığa gələn Dövlətlərdə qüvvədə olan uşaq üçün daha əlverişli olan hər hansı bir müddəanın tətbiqinə xələl gətirmir.

Maddə 27

(1) Mənşə Dövlətdə baş vermiş övladlığa götürmə əvvəl mövcud olan valideyn-uşaq hüquq münasibətlərinin başa çatdırılmasına təsir edə bilmədikdə, onda həmin övladlığa götürmə bu Konvensiya əsasında övladlığa götürməni tanıyan qəbul edən Dövlətdə belə təsirə malik olan övladlığa götürməyə çevrilə bilər:

a) əgər qəbul edən Dövlətin qanunu buna icazə verirsə;

b) əgər 4-cü maddənin c və d yarımbəndlərində adı çəkilən razılıq bu cür övladlığa götürmə məqsədləri üçün verilmişdirsə.

(2) Övladlığa götürməni dəyişən qərara 23-cü maddə tətbiq edilir.

Fəsil VI

## ÜMUMİ MÜDDƏALAR

Maddə 28

Bu Konvensiya mənşə Dövlətin, həmin Dövlətin ərazisində daim yaşayan uşağın həmin Dövlətdə də övladlığa götürülməsini tələb edən və ya uşağın övladlığa götürülməsindən öncə qəbul edən Dövlətə yerləşdirilməsini və ya köçürülməsini qadağan edən hər hansı bir qanuna təsir etmir.

Maddə 29

Əgər övladlığa götürülmə ailə daxilində baş verməyibsə və ya əgər əlaqə mənşə Dövlətin səlahiyyətli orqanının müəyyən etdiyi şərtlərə uyğun gəlmirsə, 4-cü maddənin a-c yarımbəndlərinin və 5-ci maddənin a) yarımbəndinin tələblərinə əməl edilməyənə qədər övladlığa götürmək niyyətində olan valideynlər və uşağın valideynləri və ya uşağa qaygı göstərən hər hansı bir şəxs arasında əlaqə olmamalıdır.

Maddə 30

(1) Razılığa gələn Dövlətin səlahiyyətli orqanları onlarda olan uşağın mənşəyinə, xüsusilə də uşağın valideynlərinin şəxsiyyətinə aid olan məlumatın, habelə tibbi tarixə aid olan məlumatın qorunub saxlanılmasını təmin etməlidirlər.

(2) Onlar müvafiq təlimat və göstərişlər əsasında, həmin Dövlətin qanunu buna icazə verdiyi həcmdə, uşağın və ya onun nümayəndəsinin bu cür məlumatla tanış olmasını təmin etməlidirlər.

Maddə 31

30-cu maddəyə xələl gətirmədən, bu Konvensiya əsasında toplanmış və ya ötürülmüş məlumat, xüsusən də 15-ci və 16-cı maddələrdə qeyd olunan məlumatdan yalnız həmin məlumatın toplanıldığı və ya ötürüldüyü məqsədlər üçün istifadə edilə bilər.

Maddə 32

(1) Heç kəs ölkələrarası övladlığa götürməyə aid olan fəaliyyətdən düzgün olmayan maliyyə və ya digər gəlir növü əldə edə bilməz.

(2) Yalnız xərc və məsrəflər, o cümlədən övladlığa götürülmədə iştirak edən şəxslərin fəaliyyəti ilə əlaqədar ağlabatan ödəmələr tutula və ya ödənilə bilər.

(3) Övladlığa götürmədə iştirak edən orqanların rəhbərliyi, müdiriyyəti və işçi heyəti göstərdikləri xidmətə görə ağlabatan məbləği aşan mükafat ala bilməzlər.

Maddə 33

Bu Konvensiyanın hər hansı bir müddəasına əməl edilməməni və ya onun əməl olunmamasına ciddi riskin olduğunu aşkar edən səlahiyyətli orqan öz Dövlətinin Mərkəzi orqanını bu barədə təxirə salmadan məlumatlandırmalıdır. Həmin Mərkəzi orqan müvafiq tədbirlərin görülməsinin təmin edilməsinə görə cavabdehdir.

Maddə 34

Sənədlərin ünvanlandığı Dövlətin səlahiyyətli orqanı bu cür tələb etsə, sənədə, sənədin əsli ilə eyni olduğunu təsdiq edən tərcümə əlavə edilməlidir. Digər qayda nəzərdə tutulmayıbsa, belə

tərcümə ilə əlaqədar xərclər övladlığa götürmək niyyətində olan valideynlər tərəfindən ödənilməlidir.

Maddə 35

Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları övladlığa götürmə prosesində cəld hərəkət etməlidirlər.

Maddə 36

İki və ya daha çox hüquq sistemi olan Dövlətə münasibətdə müxtəlif ərazi vahidlərində tətbiq olunan övladlığa götürməyə dair:

a) həmin Dövlətdə daimi yaşayışa aid hər hansı bir istinad, həmin Dövlətin ərazi vahidindəki daimi yaşayışa aid olan kimi izah edilməlidir;

b) həmin Dövlətin qanununa hər hansı bir istinad müvafiq ərazi vahidində qüvvədə olan qanuna istinad kimi izah edilməlidir;

c) həmin Dövlətin hər hansı bir səlahiyyətli orqanına və ya dövlət rəsmisinə hər hansı bir istinad müvafiq ərazi vahidində hərəkət etməyə səlahiyyət almışlara istinad kimi izah edilir;

d) həmin Dövlətin akkreditə edilmiş orqanına hər hansı bir istinad müvafiq ərazi vahidində akkreditə edilmiş orqana istinad kimi izah edilir.

Maddə 37

Övladlığa götürməyə dair müxtəlif kateqoriyalı şəxslərə aid olan iki və ya daha çox hüquq sistemi olan Dövlətə münasibətdə, həmin Dövlətin qanuna istinadlar həmin Dövlətin qanununda müəyyən edilmiş hüquqi sistemə istinadlar kimi izah edilir.

Maddə 38

Ərazi vahidləri hüdudlarında övladlığa götürmə ilə bağlı öz hüquq qaydaları olan dövlət üçün bu Konvensiyanın tətbiqi onu vahid hüquq sistemi olan dövlətlərin tətbiq etmədiyi hallarda məcburi deyildir.

Maddə 39

(1) Bu Konvensiya, Razılığa gələn Dövlətlərin tərəfdar çıxdıqları və bu Konvensiyanın tənzimlədiyi məsələlərə dair müddəaları əks etdirən hər hansı bir beynəlxalq sənədə, əgər Tərəf olan Dövlətlər tərəfindən bu cür sənədə dair ziddiyyətli bəyanat verilməmişdirsə, təsir etmir.

(2) Razılığa gələn istənilən Dövlət, qarşılıqlı münasibətlərdə bu Konvensiyanın tətbiqini yaxşılaşdırmaq məqsədilə Razılığa gələn bir və ya daha çox Dövlətlə sazişlərə daxil ola bilər. Bu sazişlər yalnız 14-16 və 18-21-ci maddələrin müddəalarının tətbiqini məhdudlaşdıra bilər. Bu cür saziş bağlamış Dövlətlər həmin sazişin surətini bu Konvensiyanın depozitarisinə ötürəcəkdir.

Maddə 40

Bu Konvensiyaya heç bir qeyd-şərt edilə bilməz.

Maddə 41

Bu Konvensiya, Konvensiya hüquqi qüvvəyə minəndən sonra qəbul edən Dövlətdə və mənşə Dövlətdə 14-cü maddəyə uyğun olaraq müraciət alınan hər bir halda tətbiq edilir.

Maddə 42

Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının Baş katibi Konvensiyanın praktiki cəhətdən tətbiqini nəzərdən keçirmək üçün müntəzəm olaraq Xüsusi Komissiya çağırır.

Fəsil VII

## YEKUN MÜDDƏALAR

Maddə 43

(1) Bu Konvensiya, Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının On yeddinci Sessiyası zamanı həmin Konfransın üzvü olan Dövlətlər və həmin Sessiyada iştirak edən digər Dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır.

(2) Konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilməli, ratifikasiya, qəbul və ya təsdiq etmə haqqında sənədlər bu Konvensiyanın depozitarisi olan Niderland Krallığının Xarici İşlər Nazirliyinə depozitə verilməlidir.

Maddə 44

(1) Bu Konvensiya 46-cı maddənin 1-ci bəndinə uyğun olaraq qüvvəyə mindikdən sonra digər istənilən dövlət ona qoşula bilər.

(2) Qoşulma haqqında sənədlər depozitariyə saxlanca verilməlidir.

(3) Bu cür qoşulma yalnız, qoşulan dövlət və 48-ci maddənin b) yarımbəndində qeyd olunan bildirişin verilməsindən sonra altı ay ərzində etiraz etməmiş Razılığa gələn Dövlətlər arasındakı münasibətlərə təsir edir. Belə etiraz həmçinin Dövlətlər tərəfindən, onlar qoşulduqdan sonra bu Konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilən zaman verilə bilər. İstənilən bu cür etiraz haqqında depozitariyə məlumat verilməlidir.

Maddə 45

(1) Əgər Dövlətin iki və ya daha çox ərazi vahidində bu Konvensiyaya aid olan məsələlərə dair fərqli hüquq sistemi tətbiq edilirsə, onda həmin Dövlət imzalayarkən, ratifikasiya, qəbul və ya təsdiq edərkən və ya ona qoşularkən bəyan edə bilər ki, bu Konvensiya onun bütün ərazi vahidlərinə və ya onlardan biri və ya bir neçəsinə şamil edilir və istənilən zaman digər bəyannamə göndərməklə həmin bəyannaməni dəyişdirə bilər.

(2) Hər hansı bir bu cür bəyannamə depozitariyə bildirilməli və bu Konvensiyanın tətbiq ediləcəyi ərazi vahidlərini dəqiq əks etdirməlidir.

(3) Əgər Dövlət bu maddəyə əsasən hər hansı bir bəyanat vermirsə, bu Konvensiya həmin Dövlətin bütün ərazi vahidlərinə şamil edilməlidir.

Maddə 46

(1) Bu Konvensiya, 43-cü maddədə qeyd olunan ratifikasiya, qəbul və ya təsdiq etmə haqqında üçüncü sənədin depozitariyə verilməsindən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

(2) Bundan sonra Konvensiya aşağıdakılara münasibətdə:

a) onu ratifikasiya, qəbul və ya təsdiq etdikdən bilavasitə sonra və ya ona qoşulan hər bir Dövlətə münasibətdə, həmin dövlət öz ratifikasiya, qəbul, təsdiq etmə və ya qoşulma haqqında sənədi depozitariyə verdikdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir;

b) 45-ci maddəyə uyğun olaraq bu Konvensiyanın şamil edildiyi ərazi vahidinə münasibətdə, həmin maddədə qeyd olunan bildirişdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 47

(1) Bu Konvensiyanın Tərəfi olan Dövlət yazılı şəkildə depozitariyə bildiriş göndərməklə, onu denonsasiya edə bilər.

(2) Denonsasiya depozitarinin bildirişi aldığı tarixdən on iki ay sonra gələn ayın birinci günü qüvvəyə minir. Denonsasiyanın qüvvəyə minməsi üçün bildirişdə daha uzun müddət nəzərdə

tutulduqda, denonsasiya, depozitari bildirişi aldığı tarixdən sonra bu cür uzun müddətin bitməsindən sonra qüvvəyə minir.

Maddə 48

Depozitari Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının üzvü olan Dövlətləri, On yeddinci Sessiyada iştirak edən digər Dövlətləri və 44-cü maddəyə uyğun olaraq Konvensiyaya qoşulan Dövlətləri aşağıdakılar barədə məlumatlandırır:

a) 43-cü maddədə qeyd olunan imzalama, ratifikasiya, qəbul və təsdiq etmə;
b) qoşulma və 44-cü maddədə qeyd olunan etiraz;
c) 46-cı maddəyə uyğun olaraq Konvensiyanın qüvvəyə mindiyi tarix;
d) 22, 23, 25 və 45-ci maddədə qeyd olunan bəyannamələr və təyinatlar;
e) 39-cu maddədə qeyd olunan sazişlər;
f) 47-ci maddədə qeyd olunan denonsasiyalar.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Haaqada 1993-cü il may ayının 29-cu günü, ingilis və fransız dillərində, bir nüsxədə tərtib edilmişdir, hər iki mətn autentikdir. Əsl nüsxə Niderland Krallığının arxivinə depozitə verilir və onun təsdiq olunmuş surətləri diplomatik kanallar vasitəsilə Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının On yeddinci Sessiyası zamanı həmin Konfransın üzvü olan hər bir Dövlətə və həmin Sessiyada iştirak edən digər hər bir Dövlətə ötürülür.

**29 may 1993-cü il tarixli**
**“Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında” Konvensiyaya dair**

## AZƏRBAYCAN RESPUBLİKASININ BƏYANATLARI

1. Konvensiyanın 17, 21 və 28-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikası bəyan edir ki, yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında övladlığa verilmiş uşaqlar Azərbaycan Respublikası ərazisini tərk edə bilərlər.
2. Konvensiyanın 22-ci maddəsinin 4-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikası bəyan edir ki, Azərbaycan Respublikası ərazisində adətən daimi yaşayan uşaqların övladlığa götürülməsi yalnız Mərkəzi orqanın funksiyalarının 22-ci maddənin 1-ci bəndinə uyğun olaraq yerinə yetirdiyi halda həyata keçirilə bilər.
3. Konvensiyanın 25-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası bəyan edir ki, o, Konvensiyanın 39-cu maddəsinin 2-ci bəndinin tətbiqi ilə əlaqədar olaraq bağlanmış, Azərbaycan Respublikasının iştirakçısı olmadığı sazişlər əsasında övladlığa götürmələri tanımayacaqdır.